# AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ TƏMİNAT MEXANİZMLƏRİ

*"10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü"nə ithaf olunur*

**Mirzəyeva Leyla Eytibar qızı,**
**Sumqayıt İnzibati Məhkəməsinin hakimi.**
E-mail: leylamirzayeva88@mail.ru

*Məqalədə müəllif tərəfindən Azərbaycanda insan hüquqlarının təminat mexanizmlərinə dair məsələ elmi cəhətdən araşdırılır. İlk növbədə, Yer kürəsində ən ali və bəşəri dəyərlərdən biri olan insan hüquqlarına doktrinal kontekstdə yanaşılmasına təşəbbüs göstərilir. Qeyd edilir ki, dünyada інсан щцгугларынын qorunması, mödafiəsi və təmin olunması universal, regional və milli (dövlətdaxili) səviyyələrdə yaradılmış hüquqi mexanizmlər vasitəsilə həyata keçirilir. Bu sahədə mövcud olan beynəlxalq hüquqi aktlara xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasında insan hüquqlarının qorunması sahəsində milli hüquqi təminatlar mexanizmi aşağıdakı kimi fərqləndirilir: Konstitusiyada təsbit edilən təminatlar, qanunlarda və digər normativ hüquqi aktlarda təsbit edilən təminatlar, məhkəmə müdafiəsi təminatı və digər siyasi-iqtisadi, sosial-hüquqi təminatlar.*

**Açar sözlər:** insan hüquqları, təminat mexanizmi, normativ hüquqi aktlar, məhkəmə müdafiəsi, sosial-hüquqi təminatlar.

Dünyada ən ali dəyərlərdən biri insan hüquqları sayılır. İlk növbədə, insan hüquqları anlayışının məna yükünə aydınlıq gətirək. Qeyd etməliyik ki, insan hüquqları terminoloji baxımdan, "insan" və "hüquqlar" sözlərindən yaranmaqla, onların vahid halda birləşməsindən özünün həqiqi mənasını ifadə edir. Belə ki, insan hüquqları şəxsiyyət varlığının azadlığını ehtiva edərək, şəxsiyyətin cəmiyyət, dövlət və fərdlərlə qarşılıqlı münasibətləri kontekstində zəruri vasitə kimi vacib rol oynayır. Hüquq ədəbiyyatı səhifələrində haqlı olaraq göstərildiyi kimi, insan hüquqları fundamental imtiyazlardır, cəmiyyətə qarşı irəli sürülən tələblərdir (8, s.8-9). İnsan hüquqları konstruksiyasının aktual komponentləri qismində demokratiya, azadlıq, humanizm, bərabərlik, ədalətlilik və s. elementlər çıxış edir. Cəmiyyətdə hüquqi düşüncənin (legal awareness) təşəkkül tapması fəlsəfi-hüquqi kateqoriya kimi hüquqi ideologiya və hüquqi psixologiya elementlərinin formalaşmasını şərtləndirir (13, s.679). Eyni zamanda, beynəlxalq hüquq doktrinasında, bəzən, insan hüquqları anlayışı əvəzinə "insan haqları" termini işlədilir (7, s.233-235). Hüquqşünas alimlərdən professor İ.İ.Lukaşuk hesab edir ki, "beynəlxalq insan haqları hüququ" kimi terminindən (ingiliscə – "international law of human rights") istifadə olunması məqsədəuyğun və münasibdir (12, s.33). Burada işlədilən «insan haqları» ingiliscə tərcümədə «insan hüquqları» ilə eynimənalı (sinonim) anlayış olub, ona bərabər tutulur (4, s.203). Belə ki, "haqlar"

və "hüquqlar" insanın malik olduğu eyni potensial hüquqi imkanlardır. "İnsan haqları" anlayışı müasir dövrdə elmi dövriyyədə, kütləvi informasiya vasitələrində, rəsmi sənədlərdə və praktikada işlədilən termindir. Belə ki, Avropa İttifaqının təməl dəyərlərindən biri kimi "insan haqları" ifadəsi işlədilir; Avropa Təhlükəsizliyi Xartiyasında da bu ifadənin işlədilməsinə rast gəlinir; Demokratiya və İnsan haqları üzrə Avropa Təşəbbüsü – EİDHR qurumu yaradılmışdır, Avropa İnsan Haqları Məhkəməsi mövcuddur; həmçinin Azərbaycanda Hüquq və İnsan Haqları institutu fəaliyyət göstərir və s. Qeyd etməliyik ki, hüquq elmində insan haqları iki mənada işlədilir: məhdud mənada, geniş mənada. Məhdud mənada insan haqları dedikdə vətəndaşlığından və hansı dövlətə mənsubiyyətindən asılı olmayaraq, hər bir fiziki şəxsin malik olduğu insan hüquq və azadlıqları (təbii hüquqlar) başa düşülür. Məsələn, azadlıq hüququ, yaşamaq hüququ, mülkiyyət hüququ və s. hüquqi imkanlar məhdud mənada insan haqlarına aid olunur.

Geniş mənada insan haqları dedikdə həm insan hüquq və azadlıqları (təbii hüquqlar), həm də vətəndaş hüquq və azadlıqları (süni hüquqlar) blokundan ibarət olan hüquqi imkanlar sistemi başa düşülür. Nəzərdən qaçırmaq olmaz ki, ayrı-ayrı dövlətlərin konstitusiyalarında, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında fiziki şəxslərin malik olduqları hüquqlar iki növə bölünür: insan hüquq və azadlıqları (təbii hüquqlar), vətəndaş hüquq və azadlıqları (süni hüquqlar).

İnsan hüquq və azadlıqları hər bir fiziki şəxsin, öz vətəndaşlığından asılı olmayaraq, malik olduğu hüquqi imkanlardır. Doğulan kimi hər kəs insan hüquq və azadlıqlarına malik olur; bu baxımdan, insan hüquq və azadlıqları təbii hüquqlardır.

Vətəndaş hüquq və azadlıqlarına gəldikdə isə, qeyd etməliyik ki, belə hüquqi imkanları fiziki şəxslərə onların vətəndaşlığından asılı olaraq, mənsub olduğu dövlət verir, necə deyərlər, "bəxş edir". Bu baxımdan, vətəndaş hüquq və azadlıqları süni hüquqlardır. Məsələn, seçki hüququ, dövlətin idarə olunmasında iştirak etmək hüququ, siyasi partiyalarda birləşmək hüququ, sərbəst toplaşmaq azadlığı və s. hüquqi imkanlar vətəndaş hüquq və azadlıqları (süni hüquqlar) kateqoriyasına aiddir.

Göründüyü kimi, insan və vətəndaş hüquq və azadlıqlarının məcmusu bütövlükdə insan haqlarının sistemini yaradır. Bu sistem iki blok hüquqi imkanlardan ibarətdir: birinci blok insan hüquq və azadlıqlarını, ikinci blok isə vətəndaş hüquq və azadlıqlarını ehtiva edir.

Fiziki şəxslər, necə deyərlər, doğulduğu andan "avtomatik surətdə" insan hüquqlarına malik olurlar. Bu baxımdan, onlar təbii və anadangəlmə hüquqlar sayılır. İnsan hüquqları arasında elə hüquqlar (məsələn, azadlıq hüququ, yaşamaq hüququ) vardır ki, onları nə başqa şəxslərə vermək, nə də özgəninkiləşdirmək olar. Bu nöqteyi-nəzərdən, insan hüquqları özgəninkiləşdirilməz hüquqlardır.

İnsan haqlarının hüquqi cəhətdən qorunmasına və müdafiəsinə dünyada mövcud olan bütün hüquq sistemləri prioritet əhəmiyyət verir (8, 352s.). Bu, aydın məsələdir. Hüquq sistemlərindən biri olan beynəlxalq hüquq bir sıra vacib məsələni özünün nizamasalma predmetinə daxil edir ki, insan haqlarının qorunması və müdafiəsi həmin

məsələlərdən biridir; onun vasitəsi ilə insan haqlarının (hüquq və azadlıqların) beynəlxalq səviyyədə qorunması və müdafiəsi həyata keçirilir. Başqa cür ifadə etsək, sözügedən hüquq sistemi beynəlxalq səviyyədə insan haqlarını qoruyur və müdafiə edir. Hər hansı bir dövlət öz vətəndaşlarına seçki hüququ, siyasi partiyalarda birləşmək hüququ və s. vətəndaş hüquqları (süni hüquqlar) verir, digər dövlət isə öz vətəndaşlarını belə hüquqlarla təmin etmir.

Beynəlxalq hüquqda insan haqları geniş mənada başa düşülür və anlaşılır. Başqa sözlə, dünyada mövcud olan beynəlxalq hüquq sistemi "insan haqları" anlayışını geniş mənada işlədir. Yeri gəlmişkən, qeyd edək ki, xüsusi xarakterli və ayrıca hüquq sistemi olan Avropa hüququ da "insan hüquqları" anlayışını geniş mənada işlədir (6, s.581).

İnsan hüquqları məzmunca müxtəlifdir. Belə ki, məzmun kimi əlamətə görə insan hüquqlarının üç növü fərqləndirilir (7, s.238):

1) şəxsi hüquqlar (məsələn, nigah hüququ, azadlıq hüququ, yaşamaq hüququ və s.);

2) ictimai-siyasi hüquqlar (məsələn, seçki hüququ, cəmiyyətin siyasi həyatında iştirak etmək hüququ, siyasi partiyalarda birləşmək hüququ, sərbəst toplaşmaq azadlığı, dövlətin idarə olunmasında iştirak etmək hüququ və s.);

3) sosial-iqtisadi və mədəni hüquqlar (məsələn, mülkiyyət hüququ, əmək hüququ, azad sahibkarlıq hüququ, mənzil hüququ, mədəniyyət hüququ, əqli mülkiyyət hüququ, yaradıcılıq azadlığı və s.).

Məhz buna görə də, müasir dövrdə demokratik inteqrasiya proseslərinin və milli inkişafın mühüm şərti kimi dəyərləndirilən fenomen – insan hüquqlarına hörmət, onların müdafiəsi və təminatı hər bir dövlətin ali məqsədinə çevrilmişdir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi öçün insan hüquqları sahəsinin inkişafı olduqca önəmli faktorlardan biridir. Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş (1995-ci il), beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması və insan hüquqları sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Xüsusilə, qeyd etməliyik ki, Azərbaycan Respublikasının Konstitusiyasında müxtəlif mülkiyyət formalarının tanınması (maddə 13), insan höquq və azadlıqlarının müdafiəsi (maddə 26), insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatı (maddə 26, II hissə), hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ (maddə 26, I hissə), yaşamaq hüququ (maddə 27), əqli mülkiyyət hüququnun mühafizəsi (maddə 30), sosial təminat hüququ (maddə 38), sağlamlığın qorunması hüququ (maddə 41), vətəndaşlıq hüququnun təminatı (maddə 53), müraciət etmək hüququ (maddə 57), azad sahibkarlıq hüququ (maddə 59), hüquq və azadlıqların məhkəmə təminatı (maddə 60), hüquqi yardım almaq hüququ (maddə 61), insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı (maddə 71) və s.

barədə çoxsaylı müvafiq normalar təsbit olunmuşdur. Belə ki, hər kəsin konstitusion hüquqları vardır və belə hüquqlar qanunla qorunur (9).

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi, sosial-iqtisadi və insan höquqlarının effektiv şəkildə təmin edilməsi kursunu dövrün tələblərinə uyğun yeni praqmatik çalarlarla zənginləşdirərək uğurla və düşünülmüş addımlarla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Qeyd etməliyik ki, insan hüquqlarının müdafiəsi və təmin edilməsi işi hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Bu gün Azərbaycanda müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq təsisatlar sisteminə inteqrasiya prosesləri insan hüquqlarını təminetmə mexanizminin təkmilləşdirilməsini, müvafiq hüquqi bazanın daim modernləşdirilməsini və bu işin beynəlxalq standartlara tam uyğun aparılmasını zəruri edir.

Eyni zamanda, Heydər Əliyev Fondu sözögedən sahənin inkişafını öz fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və insan hüquqları sferasına aid proqram və layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva tərəfindən ölkədə insan hüquqlarının təminatı istiqamətində gənc kadrlar nəslinin formalaşmasına göstərilən diqqət və qayğı, eləcə də verilən real töhfələr təqdirəlayiqdir.

Dünyada інсан щцгугларынın qorunması, mödafiəsi və təmin olunması universal, regional və milli (dövlətdaxili) səviyyələrdə yaradılmış hüquqi mexanizmlər vasitəsilə həyata keçirilir. Təsadüfi deyil ki, insan hüquqlarının universial səviyyədə müdafiəsi ideyası ilk dəfə BMT Nizamnaməsində (1945-ci il) öz əksini tapmışdır. Nizamnamədə irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilmişdir. İnsanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsi və buna riayət edilməsinə dəstək verilməsi (55-ci maddə) və bundan ötrü BMT ilə birgə və ya müstəqil tədbirlər görülməsi (56-cı maddə) üzv dövlətlərin üzərinə vəzifə kimi qoyulmuşdur. Bu kontekstdə 10 dekabr 1948-ci il tarixdə BMT Baş Assambleyasının 217(III) saylı qətnaməsi ilə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin adını, xüsusilə, çəkməliyik. 30 maddədən ibarət olan bu sənəddə vətəndaş və siyasi hüquqlardan başqa, bir sıra iqtisadi, sosial və mədəni hüquqlar da təsbit olunmuşdur. Əlamətdar haldır ki, hər il dekabr ayının 10-u "Beynəlxalq insan hüquqları günü" kimi qeyd edilir. Beynəlxalq hüquqda insan haqlarının təminatı ilə bağlı həm universal, həm də regional səviyyədə yeni normaların qəbul edilməsini təqdirəlayiq hal kimi qeyd etməliyik. Belə ki, "Mülki və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktlar qəbul edildi; 1976-cı ildə "Mülki və siyasi hüquqlar haqqında" Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokol qəbul olundu. Həmin fundamental sənədlər "İnsan hüquqları haqqında Beynəlxalq Bill" adlanaraq, bu sahədə beynəlxalq standartların əsasını təşkil

etdi. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasında (1950-ci il), Avropa Mədəniyyət Konvensiyasında (1954-cü il), Terrorizmin qarşısının alınması haqqında Konvensiyada (1977-ci il), Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasında (1995-ci il), Avropa Sosial Xartiyasında (1996-cı il), 1975-ci il Helsinki Yekun Aktında, 1990-cı il Yeni Avropa üçün Paris Xartiyasında və digər beynəlxalq sənədlərdə insan hüquq və azadlıqlarının müdafiə mexanizmləri inkişaf etdirilərək daha da təkmilləşdirildi (10, s.15-16).

Göründüyü kimi, beynəlxalq hüquq insan və vətəndaş hüquq və azadlıqları sahəsində beynəlxalq standartlar müəyyənləşdirir. O, həm də insan haqlarını təmin etməyin beynəlxalq mexanizmlərini formalaşdırır. Bunlardan əlavə, beynəlxalq hüququn nizamasalma predmetinə beynəlxalq təşkilatların insan hüquqlarının müdafiəsinə yönələn fəaliyyəti də daxildir. Artıq qeyd etdiyimiz kimi, insan hüquqlarının müdafiəsi və təmin olunması milli (dövlətdaxili) səviyyədə də həyata keçirilir. Bu məqsədlə, hər bir ayrıca götürülmüş dövlətdə olduğu kimi, Azərbaycan Respublikasında da zəruri kompleks normativ hüquqi baza yaradılmış və səmərəli fəaliyyət göstərir. Bu sırada Azərbaycan Respublikasının Konstitusiyası əsas və aparıcı yer tutur. Bununla yanaşı aşağıdakı aktların da mühüm rol oynamasını vurğulamalıyıq. Nümunə qismində göstərək ki, Azərbaycan Respublikası Prezidentinin 18.06.1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" insan hüquqlarının təminatı ilə bağlı yeni mexanizmlərin hazırlanması istiqamətində fundamental bir sənəd olmaqla aşağdakı məsələlərin: qanunvericilik və institusional islahatların aparılmasını, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil təsisatının yaradılmasını, hüquq mühafizə fəaliyyətinin təkmilləşdirilməsini, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsini və digər məsələlərin həllini qarşıya məqsəd olaraq qoymuşdu. İnsan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq, Dövlət Proqramının qəbul olunduğu gün – iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanda insan hüquqları günü elan edilmişdir.

İnsan hüquq və azadlıqlarının təminatı sahəsində "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun da xüsusi əhəmiyyəti vardır. Qanun Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyaya uyğunlaşdırılması məqsədi ilə qəbul edilmişdir. Qanunun müsbət cəhəti ondan ibarətdir ki, burada məhdudlaşdırılması qadağan olunan insan hüquqlarının dairəsi dəqiqləşdirilmiş və qeyd edilmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 27-ci (yaşamaq hüququ) maddəsində (müharibənin hüquqa uyğun aparılması nəticəsində baş verən ölüm halları istisna olmaqla), 28-ci (azadlıq hüququ) maddəsinin I hissəsində, 46-cı (şərəf və ləyaqətin müdafiəsi hüququ) maddəsinin III hissəsində, 63-cü (təqsirsizlik prezumpsiyası), 64-cü (bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi) maddələrində və 71-ci

(insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) maddəsinin VIII hissəsində nəzərdə tutulan hüquqlar məhdudlaşdırıla bilməz və onlara dair qeyd-şərtlər müəyyən edilə bilməz.

Adıçəkilən Qanunun digər üstün cəhətlərindən biri odur ki, burada, ilk dəfə olaraq, şəxsin hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermə hüququ nəzərdə tutulmuşdur. Bundan əlavə, məhkəmələrin insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ təsbit edilmişdir (10, s.17-18).

İnsan hüquqları sahəsində aparılan islahatların uğurlu davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 28.12.2006-cı il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu akt, faktiki olaraq, insan hüquqlarına yeni bir baxış sərgiləyərək, dövlət və vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edir. “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” (2011-ci il) da xüsusi maraq doğurur. Burada əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin (məsələn, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və b.) hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədi ilə fəaliyyət istiqamətləri müəyyən edilmişdir. İnsan hüquq və azadlıqlarının təminatı mexanizminin təkmilləşdirilməsi kontekstində Dövlət Başçısı tərəfindən verilmiş “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirlməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prossesual məcburiyyət tədbirlərinin genişləndirilməsi barədə” Sərəncam (2017-ci il), xüsusilə, diqqəti cəlb edir. Bu sənədin əsas məqsədi cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrum etmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasından ibarətdir. Həmçinin, vətəndaş cəmiyyətində milli hüquq sisteminə yeni daxil edilmiş “mediasiya institutu” insan hüquqlarının fiziki və hüquqi şəxslər tərəfindən könüllülük, hüquq bərabərliyi və qarşılıqlı əməkdaşlıq şəraitində özlərinin istəyi əsasında təmin edilməsi prosedurlarını ehtiva edir. Belə ki, mübahisələrin məhkəmədənkənar alternativ həll üsullarindan biri kimi mediasiyanın həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlər “Mediasiya haqqında” Azərbaycan Respublikasının 29 mart 2019-cu il tarixli 1555-VQ nömrəli Qanunu ilə tənzimlənir (11). Belə bir məqamı da, xüsusilə, qeyd etməliyik ki, həyata keçirilən hüquqi islahatların qayəsini, ilk növbədə, insan hüquqlarının etibarlı təminat, vətəndaşlara qayğılı münasibət, onlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi təşkil edir, bu da, təbiidir, çünki “Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır” – deyən ölkə prezidenti mütəmadi olaraq ictimayyətlə görüşərək, vətəndaşların qayğıları ilə maraqlanır, onların müraciətlərinə həssaslıqla yanaşılmasını daim diqqət mərkəzində saxlayır, humanizm siyasətini uğurla davam etdirir (4). Göründüyü kimi, insan hüquq və azadlıqlarının təminatı problemi Azərbaycan

dövlətinin yeritdiyi siyasətin prioritet istiqamətlərindən biridir və onun daim təkmilləşməsi istiqamətində zəruri işlərin aparılması davam etdirilir. Beləliklə, Azərbaycan Respublikasında insan hüquqlarının qorunması sahəsində milli (dövlətdaxili) hüquqi təminatlar mexanizmini təsbit üsulundan və subyekt tərkibindən asılı olaraq, aşağıdakı kimi fərqləndirə bilərik: Konstitusiyada təsbit edilən təminatlar, qanunlarda və digər normativ hüquqi aktlarda təsbit edilən təminatlar, məhkəmə müdafiəsi təminatı və digər siyasi-iqtisadi, sosial-hüquqi təminatlar.

### İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «PG» nəşriyyatı, 2014, 52 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab / Buraxılışa məsul: R.Ə.Mehdiyev. Bakı: Azərnəşr, 1997-2013.
3. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1 – 119 kitab.Bakı: Azərnəşr, 2003-2022.
4. Azərbaycan Respublikasının ədliyyə naziri Fikirət Məmədovun məqaləsi // “Azərbaycan” qəzeti, 22 noyabr 2017-ci il, nömrə 257 ( 7693).
5. Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti. Normativ aktlar toplusu / Buraxılışa məsul: Ə.H.Hüseynov. Bakı: «Digesta» nəşriyyatı, 2008, 392 s. 4. Abbasov A.Q. İngiliscə-Azərbaycanca hüquq terminləri lüğəti. Bakı, 2007, s.203.
6. Avropa hüququ. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, s. 581.
7. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı:«Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, 704 s.
8. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «Nurlar» nəşriyyatı, 2019, 352 s.
9. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəş., 2006, 698 s.
10. İsaxan Vəliyev. İnsan hüquqlarının müdafiəsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi // Nəqliyyat hüququ.Bakı, 2017, №3, s.15-21.
11. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu // Buraxılışa məsul: B.C.Kərimli. Bakı, “Hüquq Yayın Evi”, 2019, 36 s.
12. Лукашук И.И. Международное право. Особенная часть. Учебник. М., 1998, с.33.
13. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.: Юринформцентр, 2005, 972 с.

## МЕХАНИЗМЫ ОБЕСПЕЧЕНИЯ ПРАВ ЧЕЛОВЕКА В АЗЕРБАЙДЖАНЕ

**Мирзаева Лейла Эйтибар кызы,**
**судья Сумгайытского административного суда.**
Электронная почта: leylamirzayeva88@mail.ru

В статье автор с научной точки зрения рассматривает вопрос о механизмах защиты прав человека в Азербайджане. Прежде всего, в доктринальном контексте рассматриваются права человека, являющиеся одной из высших и общечеловеческих ценностей на Земле. Отмечается, что защита и обеспечение прав человека в мире осуществляется через правовые механизмы, созданные на универсальном, региональном и национальном (внутригосударственном) уровнях. Особое внимание уделено действующим международно-правовым актам в данной сфере. Механизм национальных правовых гарантий

в области защиты прав человека в Азербайджанской Республике различают следующим образом: гарантии,установленные Конституцией, гарантии,установленные законами и иными нормативными правовыми актами, гарантии судебной защиты и другие политико-экономические, социально-правовые гарантии.

**Ключевые слова:** права человека, гарантийный механизм, нормативно-правовые акты, судебная защита, социально-правовые гарантии.

## HUMAN RIGHTS ENSUREMENT MECHANISMS IN AZERBAIJAN

**Mirzayeva Leyla Eytibar gizi,**
**judge of Sumgayit Administrative Court.**
E-mail: leylamirzayeva88@mail.ru

In the article, the author scientifically examines the issue of human rights protection mechanisms in Azerbaijan. First of all, human rights, which are one of the highest and human values on Earth, are approached in a doctrinal context. It is noted that the protection and provision of human rights in the world is carried out through legal mechanisms created at the universal, regional and national (intrastate) levels. Special attention is paid to existing international legal acts in this field. The mechanism of national legal guarantees in the field of human rights protection in the Republic of Azerbaijan is distinguished as follows: guarantees established in the Constitution, guarantees established in laws and other normative legal acts, guarantee of judicial protection and other political-economic, social-legal guarantees.

**Key words:** human rights, guarantee mechanism, normative legal acts, judicial protection, social-legal guarantees.

## AZERBAYCAN'DA İNSAN HAKLARINI SAĞLAMA MEKANİZMALARI

**Mirzayeva Leyla Eytibar kızı,**
**Sumgayıt İdare Mahkemesi hakimi.**
E-posta: leylamirzayeva88@mail.ru

Makalede yazar, Azerbaycan'daki insan haklarını koruma mekanizmaları konusunu bilimsel olarak incelemektedir. Öncelikle yeryüzünün en yüksek ve insani değerlerinden biri olan insan haklarına doktriner bir bağlamda yaklaşılmaktadır. Dünyada insan haklarının korunması ve sağlanmasının evrensel, bölgesel ve ulusal (eyalet içi) düzeylerde oluşturulan yasal mekanizmalar aracılığıyla gerçekleştirildiği belirtilmektedir. Bu alandaki mevcut uluslararası yasal düzenlemelere özel dikkat gösterilmektedir. Azerbaycan Cumhuriyeti'nde insan haklarının korunması alanında ulusal yasal garanti mekanizması şu şekilde ayırt edilir: Anayasada yer alan güvenceler, kanunlarda ve diğer normatif hukuki düzenlemelerde yer alan güvenceler, yargısal koruma güvencesi ve diğer siyasi-ekonomik, sosyal-hukuksal güvenceler.

**Anahtar Kelimeler:** insan hakları, garanti mekanizması, normatif yasal işlemler, yargısal koruma, sosyal-hukuksal garantiler.